MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

QONAQPƏRVƏRLİKDƏ SOSİAL ÜNSİYYƏT MƏDƏNİYYƏTİ:
NƏZƏRİ ƏSASLAR, STRUKTUR KOMPONENTLƏRİ VƏ MÜASİR ÇAĞIRIŞLAR
Arzu Soltan (Həsənli) 96

RƏQS, OYUN VƏ ƏNƏNƏVİ İDMAN MƏDƏNİYYƏTİ ANLAYIŞI VƏ TARİXİ
Rauf Bəhmənli 110

MİLLİ ATÇILIQ MƏDƏNİYYƏTİ VƏ QARABAĞ ATÜSTÜ OYUNU – ÇÖVKƏN
Ramal Nadir 116

PƏHLƏVANLIQ – ƏNƏNƏVİ ZORXANA OYUNLARI VƏ İDMAN NÖVLƏRİ
Xəyyam Orucov 122

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLARDA TEKSTİL NÜMUNƏLƏRİ
Fariz Xəlilli 125

XALÇAÇILIĞIN TARİXİ, REGİONLARA GÖRƏ XALÇA MƏKTƏBLƏRİ,
XALÇANIN MƏİŞƏTDƏ VƏ MƏRASİMLƏRDƏ ROLU, QORUNMA VƏ
YAŞADILMA PROBLEMLƏRİ
Kübra Əliyeva 129

AZƏRBAYCAN KƏLAĞAYISI – MİLLİ KİMLİYİMİZİN İPƏK SİMVOLU VƏ
MƏDƏNİ İRSİMİZİN ZƏNGİN XƏZİNƏSİ
Sulidə Rüstəmova 155

KƏLAĞAYI SƏNƏTİNİN MİLLİ-MƏDƏNİ İDENTİKLİK KONSTEKTİNDƏ SEMİOTİK VƏ
ESTETİK TƏHLİLİ
Röya Talıblı 157

LAHICDA MİSGƏRLİK SƏNƏTİ HAQQINDA
Nəzər Əliyev 161

TƏZHİB SƏNƏTİNİN TARİXİ VƏ MAHİYYƏTİ
Şəhla Xəlilli 165

ŞƏRQİN İNCİSİ OLAN AZƏRBAYCAN MİNİATÜR SƏNƏTİNİN İNKİŞAF YOLU
Nərmin İmanova 169

AZƏRBAYCAN MİLLİ MƏTBƏXİNİN TƏHRİFSİZ ŞƏRHİ
Ceyran Əsgərova 175

XALQIMIZIN SÜFRƏ VƏ MƏTBƏX MƏDƏNİYYƏTİ
Kübra Əliyeva 190

TƏNDİRİN TARİXİ VƏ MƏDƏNİ ƏHƏMİYYƏTİ
Aida İsmayılova 194

ARXEOLOJİ TƏDQİQATLARDA MƏTBƏX, ÇÖRƏK VƏ YEMƏK MƏDƏNİYYƏTİ
Fariz Xəlilli 198

KƏLAĞAYI SƏNƏTİNİN MİLLİ-MƏDƏNİ İDENTİKLİK KONSTEKTİNDƏ SEMİOTİK VƏ ESTETİK TƏHLİLİ

Röya Talıblı
Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi
Qoruqları İdarəetmə Mərkəzi "Basqal" Dövlət Tarix-Mədəniyyət Qoruğu
https://doi.org/10.30546/19023.2026.1001.315

Giriş. Bu məqalədə Azərbaycan xalqının zəngin qeyri-maddi mədəni irs nümunələrindən biri olan kəlağayı sənəti çoxşaxəli elmi yanaşma əsasında təhlil edilir. Tədqiqat çərçivəsində kəlağayının yaranma və inkişaf mərhələləri, texnoloji hazırlanma xüsusiyyətləri, ornamental quruluşu və semantik məna sistemi geniş şəkildə araşdırılır. Kəlağayı sənətinin təşəkkülü Azərbaycan ərazisində inkişaf etmiş ipəkçilik ənənələri ilə birbaşa bağlıdır. Bununla yanaşı, kəlağayı sənətinin sosial-mədəni funksiyaları, gender kontekstində rolu, eləcə də müasir dövrdə transformasiya istiqamətləri nəzəri və praktik aspektlərdən qiymətləndirilir. Məqalədə əsaslandırılır ki, kəlağayı yalnız dekorativ tekstil nümunəsi deyil, həm də milli identikliyin və kollektiv yaddaşın qorunmasında mühüm rol oynayan kompleks mədəni fenomendir. Bu sənət növü əsrlər boyu həm gündəlik həyatın, həm də mərasim mədəniyyətinin ayrılmaz hissəsi kimi mövcud olmuşdur.

Mədəni irs anlayışı müasir humanitar elmlərdə geniş interpretasiya olunan anlayışlardan biridir. Bu anlayış yalnız maddi mədəniyyət nümunələrini deyil, həm də xalqın mənəvi dünyasını, dəyərlər sistemini və estetik baxışlarını özündə ehtiva edən qeyri-maddi komponentləri əhatə edir. Bu baxımdan Azərbaycan xalqının əsrlər boyu formalaşdırdığı ənənəvi sənət növləri xüsusi elmi əhəmiyyət kəsb edir. Kəlağayı sənəti həm funksional, həm də simvolik xüsusiyyətləri ilə seçilərək milli-mədəni identikliyin əsas göstəricilərindən biri kimi çıxış edir. Onun yalnız məişət əşyası kimi deyil, həm də sosial və mədəni kommunikasiya vasitəsi kimi çıxış etməsi bu sənəti elmi tədqiqat baxımından daha da aktual edir.



Müasir dövrdə qloballaşma proseslərinin sürətlənməsi milli mədəniyyətlərin homogenləşməsi riskini artırır. Bu isə ənənəvi sənət nümunələrinin qorunması və elmi əsaslarla öyrənilməsi məsələsini ön plana çıxarır. Bu baxımdan kəlağayı sənətinin kompleks şəkildə - tarixi, texnoloji, estetik və semiotik aspektlərdən araşdırılması mühüm elmi vəzifə kimi çıxış edir. Tarixən qadın geyim mədəniyyətinin mühüm komponenti kimi formalaşan kəlağayı, zamanla yalnız məişət funksiyası ilə məhdudlaşmayaraq daha geniş mədəni informasiya daşıyıcısı kimi və simvolik məna qazanmışdır. Son dövrlərdə aparılan araşdırmalarda isə metodoloji

yanaşmaların genişləndiyi müşahidə olunur. Xüsusilə semiotik və kulturoloji istiqamətlərdə aparılan təhlillər kəlağayı ornamentikasının simvolik məzmununu üzə çıxarmağa imkan verir.

Elmi yanaşmalar göstərir ki, ənənəvi sənət nümunələrinin araşdırılması yalnız onların zahiri xüsusiyyətlərinin təsviri ilə kifayətlənməməlidir. Bu baxımdan kəlağayı sənəti vizual mədəniyyət elementi kimi semiotik təhlilə cəlb olunmalı, onun ornament və rəng sistemində kodlaşdırılmış mənalar açılmalıdır. Belə yanaşma kəlağayının sosial kommunikasiya vasitəsi kimi rolunu daha aydın şəkildə ortaya qoyur.

Azərbaycan xalqının mədəni irsi olan kəlağayı sənəti tarixən qadın geyim mədəniyyətinin ayrılmaz elementi kimi formalaşmışdır. Lakin zaman keçdikcə kəlağayı yalnız funksional baş örtüyü olmaqdan çıxaraq daha geniş mədəni və simvolik məna kəsb etmişdir. Müasir dövrdə kəlağayı sənəti yenidən aktuallıq qazanmışdır. 2014-cü ildə kəlağayı sənətinin YUNESKO tərəfindən qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi onun beynəlxalq əhəmiyyətini artırmışdır. Kəlağayı üzərində istifadə olunan ornamentlər müəyyən məna sisteminə əsaslanır. Bitki motivləri təbiətlə bağlılığı və həyatın davamlılığını ifadə etdiyi halda, həndəsi elementlər struktur və harmoniya ideyasını əks etdirir. Rəng seçimi də semantik yük daşıyır və müxtəlif emosional və mədəni məzmunları ötürür. Kəlağayı nümunələrində kompozisiya bütövlüyü, ritmik təkrarlanma və simmetriya kimi estetik prinsiplər üstünlük təşkil edir. Bu xüsusiyyətlər onun vizual dəyərini artırmaqla yanaşı, sənət nümunəsi kimi qəbul edilməsinə əsas yaradır.

Müasir interpretasiya və transformasiya. Orta əsrlərdə Azərbaycanın İpək Yolu üzərində yerləşməsi bu sahənin inkişafına əlavə stimul vermişdir. İpək məhsullarının müxtəlif ölkələrə ixracı kəlağayı kimi məhsulların da tanınmasına və yayılmasına səbəb olmuşdur. Bu dövrdə kəlağayı yalnız yerli istifadə üçün deyil, həm də ticarət obyektinə çevrilmişdir. Tarixi inkişaf prosesində kəlağayı müxtəlif regional xüsusiyyətlər qazanmışdır. Müxtəlif bölgələrdə istehsal olunan kəlağayılar ornamentika, rəng seçimi və texniki xüsusiyyətlər baxımından fərqlənmişdir. Bu isə onun mədəni müxtəlifliyin ifadə vasitəsinə çevrildiyini göstərir. Müasir dövrdə kəlağayı ənənəvi funksiyasını qorumaqla yanaşı, yeni dizayn yanaşmaları ilə zənginləşir. Ənənəvi formalar müasir dizayn elementləri ilə birləşdirilərək yeni interpretasiyalar yaranmışdır. Bu proses ənənə ilə innovasiya arasında balansın qorunmasını tələb edir və sənətin davamlılığını təmin edir. Bu isə onun həm milli, həm də beynəlxalq səviyyədə aktuallığını təmin edən əsas amillərdən biridir. Tədqiqat nəticələri göstərir ki, kəlağayı sənəti Azərbaycan xalqının mədəni identiklik sistemində mühüm yer tutur. Bu sənət növü estetik dəyərlərlə yanaşı, dərin semantik məzmun daşıyaraq kollektiv yaddaşın formalaşmasında iştirak edir.

Tarixi və texnoloji əsaslar. Kəlağayı sənəti ilə bağlı aparılmış tədqiqatlar əsasən onun tarixi, texnoloji və etnoqrafik xüsusiyyətlərini əhatə edir. Bu araşdırmalarda kəlağayının yaranma tarixi, istehsal üsulları və regional fərqləri geniş şəkildə təsvir edilmişdir. Kəlağayı istehsalı mürəkkəb və çoxmərhələli texnoloji prosesdir. Bu prosesin hər bir mərhələsi xüsusi bilik və bacarıq tələb edir. İlkin mərhələdə baramanın yetişdirilməsi, ipək sapın hazırlanması, toxuma prosesi, ornamentlərin tətbiqi və boyama mərhələləri bir-biri ilə sıx əlaqədədir. Bu baş örtüyü yalnız təbii ipəkdən hazırlanır və istehsalında yüksək keyfiyyətli ipək saplardan istifadə olunur. Parça adətən kvadrat formada hazırlanır. İstehsal prosesi toxuma, qəlibləmə, naxışlama və boyama mərhələlərindən ibarətdir. Boyama prosesi ənənəvi "küpxana"larda həyata keçirilir. Boyama mərhələsi bu prosesin ən vacib hissələrindən biri hesab olunur. Bu mərhələdə kəlağayıların rənglənməsində təbii boyalardan istifadə olunur. Bitki və təbii materiallardan əldə edilən boyalar parçaya unikal estetik görünüş verməklə yanaşı həm də simvolik dəyərini müəyyən edir. Rənglər eyni zamanda sosial və yaş fərqlərini əks etdirir. Təbii boyaların istifadəsi həm də ekoloji aspektdən mühüm əhəmiyyət daşıyır.

Rənglərin fəlsəfi və sosial semantikası. Kəlağayı ornamentləri yalnız estetik məqsəd daşımır; onlar mürəkkəb məna sisteminin daşıyıcısıdır. Bu ornamentlər vasitəsilə xalqın dünyagörüşü, inancları və həyat fəlsəfəsi ifadə olunur. "Buta" motivi bu sistemdə mərkəzi yer tutur. O, həyatın davamlılığı, enerji və yenilənmə ideyalarını simvolizə edir. Bununla yanaşı, digər bitki və həndəsi motivlər də müxtəlif semantik məna qatları daşıyır. Kəlağayı sənətində rəng yalnız estetik element deyil, həm də sosial və psixoloji məna daşıyıcısıdır. Rənglərin seçimi təsadüfi deyil və müəyyən mədəni kodlara əsaslanır. Parlaq rənglər daha çox gənclik, həyat enerjisi və dinamizmi ifadə edir. Tünd və sakit rənglər isə müdriklik, təmkin və həyat təcrübəsi ilə əlaqələndirilir. Bu fərqlər kəlağayının sosial kommunikasiya vasitəsi kimi funksiyasını gücləndirir. Kəlağayı ornamentləri zəngin simvolik məna daşıyır. Bitki motivləri həyat və təbiəti, həndəsi fiqurlar isə harmoniya və nizamı ifadə edir. "Buta" motivi bu sənətdə əsas elementlərdən biridir. Kompozisiyada simmetriya, ritm və vizual balans əsas rol oynayır. Ornamentlərin yerləşməsi müəyyən estetik qanunauyğunluqlara əsaslanır. Kəlağayı yalnız geyim elementi deyil, həm də sosial və mərasim funksiyalarına malikdir. Xüsusilə toy və ailə ənənələrində mühüm yer tutur.

Kəlağayı və gender identikliyi. Kəlağayı tarixən qadın geyim mədəniyyətinin əsas elementlərindən biri olmuşdur. Bu baxımdan o, qadın identikliyinin formalaşmasında mühüm rol oynamışdır. Qadının sosial statusu, ailə vəziyyəti və hətta psixoloji vəziyyəti müəyyən hallarda kəlağayı vasitəsilə ifadə olunmuşdur. Bu isə onun vizual kommunikasiya vasitəsi kimi əhəmiyyətini göstərir.

Sosial, ritual və kommunikativ funksiyalar. Kəlağayı yalnız gündəlik istifadə obyekti deyil, həm də ritual və mərasim funksiyalarına malikdir. Xüsusilə toy mərasimlərində onun rolu olduqca böyükdür.Bundan əlavə, bəzi hallarda kəlağayı simvolik jest kimi istifadə olunaraq sosial münasibətlərin tənzimlənməsində iştirak etmişdir. Bu isə onun qeyri-verbal kommunikasiya vasitəsi olduğunu göstərir. Kəlağayı sənəti çoxqatlı və kompleks mədəni fenomendir. O, yalnız maddi obyekt kimi deyil, həm də simvolik sistem kimi çıxış edir. Bu sənət növü: estetik dəyərləri, sosial münasibətləri , mədəni yaddaşı özündə birləşdirir. Bu baxımdan kəlağayı həm etnoqrafiya, həm kulturologiya, həm də semiotika baxımından tədqiq üçün zəngin material təqdim edir. Tədqiqat nəticəsində müəyyən olunur ki, kəlağayı sənəti Azərbaycan xalqının milli-mədəni identikliyinin əsas komponentlərindən biridir. Onun texnoloji, estetik və semiotik xüsusiyyətləri bu sənəti unikal mədəni fenomen kimi xarakterizə etməyə imkan verir.



Kəlağayı sənətinin fəlsəfi və kulturoloji mahiyyəti - Kəlağayı sənətinə yalnız dekorativ-tətbiqi sənət nümunəsi kimi yanaşmaq onun mahiyyətini tam əks etdirmir. Bu sənət növü daha geniş kontekstdə kulturoloji fenomen kimi qiymətləndirilməlidir. Çünki kəlağayı üzərində formalaşmış ornament və rəng sistemi xalqın dünya görüşünün vizual ifadəsidir. Kulturoloji yanaşmaya əsasən, hər bir mədəni obyekt müəyyən məna kodlarını özündə daşıyır. Bu baxımdan kəlağayı üzərindəki elementlər kollektiv yaddaşın materiallaşmış forması kimi çıxış edir. Onun üzərindəki simvollar yalnız estetik deyil, həm də ideoloji və fəlsəfi məzmun daşıyır. Bu kontekstdə kəlağayı sənəti insan və təbiət münasibətlərinin harmoniyasını, həyatın dövri xarakterini və varlığın dualist strukturunu ifadə edən vizual sistem kimi interpretasiya oluna bilər.

Kəlağayı sənətinin iqtisadi və turizm potensialı. Müasir dövrdə ənənəvi sənət növlərinin yalnız mədəni deyil, həm də iqtisadi əhəmiyyəti artmaqdadır. Kəlağayı sənəti bu baxımdan xüsusi potensiala malikdir. Onun istehsalı və satışı həm yerli iqtisadiyyatın inkişafına, həm də milli brendin formalaşmasına töhfə verə bilər.

Xüsusilə turizm sektorunda kəlağayı mühüm rol oynayır. Xarici turistlər üçün bu məhsul yalnız suvenir deyil, həm də milli mədəniyyətin simvolu kimi qəbul olunur. Bu isə kəlağayının beynəlxalq bazarda tanıdılması üçün geniş imkanlar yaradır. Bundan əlavə, kəlağayı sənətinin müasir dizayn sahəsi ilə inteqrasiyası onun kommersiya dəyərini daha da artırır. Müasir moda sənayesində milli ornamentlərin istifadəsi qlobal tendensiyalardan birinə çevrilmişdir.

Qloballaşma və mədəni identiklik problemi. Qloballaşma prosesi mədəniyyətlərin qarşılıqlı təsirini gücləndirməklə yanaşı, onların homogenləşməsi riskini də artırır. Bu proses nəticəsində kiçik xalqların mədəni irsi müəyyən təhlükələrlə üzləşir. Bu kontekstdə kəlağayı sənəti milli identikliyin qorunması baxımından mühüm vasitə kimi çıxış edir. O, qloballaşma şəraitində milli özünəməxsusluğun saxlanılmasına xidmət edən simvolik sistemdir.

Müasir incəsənətdə kəlağayı motivlərinin interpretasiyası. Müasir incəsənət ənənəvi elementlərin yeni formalarda təqdim olunmasına geniş imkanlar yaradır. Bu baxımdan kəlağayı motivləri rəssamlıq, moda dizaynı və vizual sənət sahələrində yeni interpretasiyalar qazanmışdır. Xüsusilə müasir rəssamlar kəlağayı ornamentikasını abstrakt kompozisiyalarla birləşdirərək yeni estetik məkan yaradırlar. Bu isə ənənə ilə müasirlik arasında dialoq formalaşdırır.

Semioloji yanaşmanın genişləndirilməsi. Semiotik yanaşma kəlağayı sənətinin dərin qatlarını anlamaq üçün mühüm metodoloji vasitədir. Bu yanaşmaya əsasən, hər bir ornament və rəng müəyyən işarə sisteminin elementi kimi çıxış edir. Kəlağayı bu baxımdan işarələr sistemidir və onun "oxunması" xüsusi mədəni bilik tələb edir. Bu isə onu sadə dekorativ obyekt deyil, kompleks kommunikasiya vasitəsi kimi xarakterizə etməyə imkan verir.

Nəticə olaraq qeyd etmək olar ki, kəlağayı sənəti Azərbaycan xalqının mədəni yaddaşının və milli identikliyinin ən parlaq ifadə formalarından biridir. Onun çoxqatlı strukturu bu sənəti yalnız dekorativ obyekt kimi deyil, həm də fəlsəfi, sosial və semiotik sistem kimi dəyərləndirməyə imkan verir.

Mənim qənaətimə görə, kəlağayı sənətinin gələcək inkişafı onun ənənəvi xüsusiyyətlərinin qorunması ilə yanaşı, müasir kontekstdə yenidən interpretasiyasından asılıdır. Bu yanaşma həm mədəni davamlılığı təmin edəcək, həm də bu sənəti qlobal mədəni mühitdə aktuallaşdıracaqdır. Kəlağayı sənətinin qorunması yalnız keçmişə bağlılıq deyil, həm də gələcəyin mədəni strategiyası kimi qiymətləndirilməlidir. Çünki milli identiklik yalnız tarixdə deyil, müasirlikdə də aktiv şəkildə yaşadılmalıdır.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300